KPMG

# Legislative Update Newsletter

January 2023

Azərbaycan dili üçün ♦ View all updates ♦ Our services ♦ Media ♦ Key contacts

Overview of recent changes in the Azerbaijani legislation which could materially impact your business

## Real estate

### 1. State registration of transactions with respect to immovable property will be carried out based on “one-stop-shop” principle

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law of the Republic of Azerbaijan “On state register of immovable property” (“Law”)

**Date of signing:** November 29, 2022

**Commentary:** The Law envisages state registration of rights based on the notarized contracts on the disposition of immovable property objects, as well as other documents (for example, contract, certificate confirming spouses’ property rights in joint properties, certificate of inheritance, division plan etc.) that have been drawn up and (or) certified as a result of notarial action on the basis of “one-stop-shop” principle. Such state registration contains the following features:

- Use of electronic documents regarding the state registration of rights contained in the information system by notary in an automated way;
- Transfer of the electronic copies of documents that are required for the state registration through information systems by notary;
- Transfer of payments for the state registration of rights accordingly by notary.

The Law entered into force on January 24, 2023.

### 2. Necessary information will be obtained through Electronic Government Information System for the purposes of notarial actions

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law of the Republic of Azerbaijan “On notary” (“Law”)

**Date of signing:** November 29, 2022

**Commentary:** According to the Law, in order to carry out notarial actions on immovable property objects, extract from the state register of immovable property, information regarding the registered rights and limitations (encumbrances) on the immovable property objects in the state register shall be obtained by notary and other authorized persons who

have the authority to carry out the notarial action through Electronic Government Information System in a reasonable time period. Such information and documents are contained in the information system that is used by notary and other authorized persons who have the authority to carry out the notarial action in an electronic form and automated way.

The Law entered into force on January 24, 2023.

### 3. Down payment agreements in relation to the disposition of immovable property will have to be notarized

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Civil Code of the Republic of Azerbaijan (“Law”)

**Date of signing:** November 29, 2022

**Commentary:** According to the Law, if the down payment agreement is associated with the disposition of immovable property objects, it is required to be notarized.

The Law entered into force on January 15, 2022.

## Migration

### 4. Foreigners and stateless persons employed by the authorized body, administrative enterprises and legal entities of Alat Free Economic Zone will not be required a work permit

**Document:** Law of the Republic of Azerbaijan “On amendments to the Migration Code of the Republic of Azerbaijan and the Law of the Republic of Azerbaijan "On Alat Free Economic Zone" ("Law")

**Date of signing:** January 23, 2022

**Commentary:** According to the Law, the persons employed by the authorized body, administrative enterprises and legal entities of the Alat Free Economic Zone in the territory of the Alat Free Economic Zone, as well as the founders of these legal entities, will not be required a work permit to engage in labor activities in the Republic of Azerbaijan.

Furthermore, the above-mentioned persons and their family members will be granted a temporary residence permit on the territory of the Republic of Azerbaijan based on the request of the authorized institution or administrative enterprise of the Alat Free Economic Zone. In this case, it will not be required to submit documents regarding the place of residence where these persons will be registered. The registration of those persons according to their place of residence will be carried out at the address provided by the authorized institution or administrative enterprise of the Alat Free Economic Zone.

The law entered into force on January 13, 2023.

### 5. Some group of foreigners and stateless persons recruited by the resident of technology park will not be required a work permit

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Migration Code of the Republic of Azerbaijan ("Law")

**Date of signing:** December 27, 2022

**Commentary:** According to the Law, the resident of the technology park (in relation to a legal entity, persons who holds the position of head and deputies of the legal entity) and specialists with experience in the field of information and communication technologies recruited by such resident to work in the territory of the Republic of Azerbaijan will not be required to have a work permit to be engaged in labor activities in the Republic of Azerbaijan.

The Law entered into force on January 1, 2023.

## Entrepreneurship

### 6. Some loans that have been issued to the entrepreneurial subjects who operate in the liberated territories will be assured by state guarantee and subsidized.

**Document:** The Decree of the President of Azerbaijan “On strengthening the necessary state support towards the broadening the access opportunities of entrepreneurs operating in the liberated territories to the financial resources” and making amendments to the Decree of the President of Azerbaijan on approval of the Rules “On obtaining debts on behalf of the Republic of Azerbaijan and assurance of such debts” no. 410 dated December 18, 2018 (“Decree”)

**Date of signing:** January 9, 2023

**Commentary:** Rules “On assurance of loans that have been issued to the entrepreneurial subjects operating in the liberated territories by state guarantee and subsidization of loan interests” (“Rules”) have been approved by the Decree.

As per the Rules, loans in Azerbaijani Manat (“AZN”) that entrepreneurs operating in the liberated territories intend to obtain from the commissioner credit institutions and are guaranteed by the state assurance shall meet the following requirements:

- The total amount of an entrepreneurial subject’s loans guaranteed by state assurance for all commissioner credit institutions shall not exceed AZN 5,000,000 (five million);
- Annual interest rate of the loan shall not be above 15%;
- The term of the loan shall not be more than 7 (seven) years;
- Grace period shall be up to 36 months, provided that it is not more than half of the term of the loan;
- Ratio of the state assurance to the amount of the loan shall not exceed 90%.

The state assurance shall not be granted in the following cases:

- The project, to which the loan an entrepreneurial subject intends to obtain from the commissioner credit institution is attracted, is not run in the liberated territories;
- If the entrepreneurial subject, according to the credit statement has outstanding debt (except for cases when the entrepreneurial subject participates as a guarantee), which continues for more than 60 days till the application date for the loan;

- If there is an order regarding the deduction of funds stipulated by enforceable court decision, as well as in cases specified by law or stipulated by the agreement between the entrepreneurial subject and commissioner credit institution;
- If the entrepreneurial subject is a relevant person of the commissioner credit institution;
- If the participation share of the state in the charter capital of the entrepreneurial subject is more than 50%, etc.

Interest subsidies shall be paid by way of calculating to the guaranteed loans. The interest subsidy shall be granted in the amount of 10% of the annual interest rate of the loan and for the period of no more than 36 months. If the annual interest rate of the loan is below 10%, the interest subsidy shall be granted in the amount of the annual interest rate of the loan.

The Decree entered into force on January 9, 2023.

## Currency regulation

### 7. Unified information system on currency transactions will be created

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law of the Republic of Azerbaijan “On Currency Regulation” ("Law")

**Date of signing:** December 23, 2022

**Commentary:** The Law envisages the establishment of a unified information system where information on currency transactions of residents and non-residents is collected in order to ensure the implementation of currency control by the Central Bank of the Republic of Azerbaijan.

The Law also defines the following about the unified information system:

- Currency control agents will register information about the exchange transactions that they have carried out in this information system and use the system for currency control purposes;
- The procedure for registering and extracting data on currency operations from the unified information system, the type of submitted data and other issues related to the operation of the system will be determined by the regulations approved by the Central Bank of the Republic of Azerbaijan;
- The information collected in the unified information system about currency transactions will be kept for the same period as the storage of documents on transactions with monetary funds, and the rules for the protection of bank secrecy will be applied to the information registered and extracted from this system;
- The consent of residents and non-residents who are data subjects will not be required for the collection and processing of data on currency operations in the unified information system, and they will not be able to object to the collection and processing of data in this system and demand the destruction of the data therein.

The Law entered into force on December 31, 2022.

## Social protection

### 8. New rules governing the payment of mandatory state social insurance fees by residents of the technology park and related persons have been adopted

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law of the Republic of Azerbaijan "On Social Insurance" ("Law")

**Date of signing:** December 27, 2022

**Commentary:** According to the Law, the resident of the technology park (including persons who carry out the activities of system integration, software development and advancement), its contractor and the subcontractor who has entered into a direct contract with the contractor, as well as individuals employed by the above-mentioned persons for the purposes of these activities (except for foreigners and stateless persons), will pay the mandatory state social insurance fee from the amount of 4 times the minimum monthly salary or from income obtained through paid employment, in accordance with the Law "On Social Insurance", depending on one's choice for a period of 10 years from January 1, 2023.

The above-mentioned insured person submits written information about their choice to the insurer by January 15 of each year, and that choice will not be changed until the end of the calendar year. For the next calendar year, if the insured persons do not submit written information about their choice in the specified period, the choice of the insured in the previous year is considered to be applied. In relation to the persons of the mentioned category who are newly hired during the calendar year, the option mentioned in the application for concluding the contract is applied.

The Law entered into force on December 31, 2022.

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law of the Republic of Azerbaijan “On Currency Regulation” ("Law")

**Date of signing:** December 23, 2022

**Commentary:** The Law envisages the establishment of a unified information system where information on currency transactions of residents and non-residents is collected in order to ensure the implementation of currency control by the Central Bank of the Republic of Azerbaijan.

The Law also defines the following about the unified information system:

- Currency control agents will register information about the exchange transactions that they have carried out in this information system and use the system for currency control purposes;
- The procedure for registering and extracting data on currency operations from the unified information system, the type of submitted data and other issues related to the operation of the system will be determined by the regulations approved by the Central Bank of the Republic of Azerbaijan;
- The information collected in the unified information system about currency transactions will be kept for the same period as the storage of documents on transactions with monetary funds, and the rules for the protection of bank secrecy will be applied to the information registered and extracted from this system;

- The consent of residents and non-residents who are data subjects will not be required for the collection and processing of data on currency operations in the unified information system, and they will not be able to object to the collection and processing of data in this system and demand the destruction of the data therein.

The Law entered into force on December 31, 2022.

## 9. The amounts of social allowances have been increased

**Document:** Decree of the President of the Republic of Azerbaijan on increasing social allowances and making amendments to the Decree of the President of the Republic of Azerbaijan “On increasing social allowances” no. 973 dated August 29, 2013 (“Decree”)

**Date of signing:** January 13, 2023

**Commentary:** As per the Decree, the amounts of social allowances are determined as follows starting from January 1, 2023:

- the amount of social allowance for reaching pension age - AZN 220;
- the amount of social allowance for disabled people with distortion of functions of organism between 81-100% - AZN 270; people with distortion of functions of organism between 61-80% - AZN 220; and people with distortion of functions of organism between 31-69% - AZN 150;
- the amount of social allowance for the loss of breadwinner - AZN 120;
- the amount of social allowance for low income families with a child under the age of one - AZN 100 for each child;
- the amount of social allowance for people suffered from radiation accident - AZN 300 per annum for treatment;
- the amount of social allowance for birth of a child - AZN 500;
- the amount of social allowance for burial - AZN 500.

The Decree entered into force on January 14, 2023.

## 10. The amount of minimum salary has been increased

**Document**: Order of the President of the Republic of Azerbaijan “On the additional measures in the field of improvement of the social wellbeing of the population” (“Order”)

**Date of signing:** January 5, 2023

**Commentary:** Pursuant to the Order, the amount of minimum monthly salary is determined AZN 345 as from January 1, 2023.

The Order entered into force on January 6, 2023.

## Civil procedural law

### 11. Mediation process will not be necessary in cases when a counterclaim is submitted

**Document:** Decision of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan "On the interpretation of Article 155 of the Civil Procedural Code of the Republic of Azerbaijan ("Code") in connection with Articles 4.3-4.6, 55.2, 152.1.6 and 152.1.6-1 of the Code" ("Decision")

**Date of Signing:** December 14, 2022

**Commentary:** Further to the Decision, defendant who has submitted a counterclaim will not be required to comply with the dispute settlement rules (pretention and mediation) prior to court proceedings in disputes arisen from commercial, family and labor relationships.

The Decision entered into force on December 14, 2022.

## Administrative law

### 12. Term for imposition of administrative reprimand has been increased

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Administrative Offences Code of the Republic of Azerbaijan ("Law")

**Date of signing:** December 2, 2022

**Commentary:** According to the Law, an administrative reprimand can be imposed no later than four months after the administrative offence is committed, except certain categories of administrative offences specified by the applicable legislation. It is worth noting that such period was three months before.

The Law entered into force on January 13, 2023.

# Our key contacts




**Alexey Abramov**

Partner,
Head of Law
KPMG Law Caspian

T +7 (916) 820 5962
E alexeyabramov@kpmg.com



**Rizvan Gubiyev**

Head of Tax and Legal,
KPMG Azerbaijan

T +994 12 404 8910
E rgubiyev@kpmg.az



**Seymur Niftaliyev**

Law Practice Leader,
KPMG Azerbaijan

T +994 12 404 8910
E sniftaliyev@kpmg.az


www.kpmg.az

Privacy | Legal

You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to office@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan


© 2023 KPMG Azerbaijan Limited, a company incorporated under the Companies (Guernsey) Law, 2008, acting through its Representative Office in the Republic of Azerbaijan, a member firm of the KPMG global organization of independent member firms affiliated with KPMG International Limited, a private English company limited by guarantee. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International.

# Qanunvericiliyə Dair Mühüm Dəyişikliklər

Yanvar 2023-cü il

For English version ♦ Bütün dəyişikliklər ♦ Xidmətlərimiz ♦ Media ♦ Əlaqə

Biznes fəaliyyətinizə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək Azərbaycan qanunvericiliyinə edilən son dəyişikliklərin icmalını Sizin diqqətinizə çatdırırıq.

## Daşınmaz əmlak

### 1. Daşınmaz əmlak ilə əlaqədar əməliyyatların dövlət qeydiyyatı "bir pəncərə" prinsipi əsasında həyata keçiriləcək

**Sənəd:** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 29 noyabr 2022-ci il

**Şərh:** Qanuna əsasən, daşınmaz əmlaka sərəncam verilməsi barədə notariat qaydasında təsdiq edilmiş müqavilələr, habelə daşınmaz əmlak barəsində aparılmış notariat hərəkətinin nəticəsi olaraq tərtib və (və ya) təsdiq edilmiş digər sənədlər (o cümlədən müqavilə, ər-arvadın ümumi əmlakdakı paya mülkiyyət hüququ haqqında şəhadətnamə, qanun və ya vəsiyyət üzrə vərəsəlik şəhadətnaməsi, bölgü planı, nisyə alqı-satqı müqaviləsi üzrə son ödəniş barədə bildiriş və s.) əsasında hüquqlarının "bir pəncərə" prinsipi əsasında dövlət qeydiyyatı nəzərdə tutulur. Bu cür qeydiyyatın xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- informasiya sistemində avtomatlaşdırılmış qaydada əks olunan hüquqların dövlət qeydiyyatı barədə elektron sənədlərdən notarius tərəfindən istifadə edilməsi;
- hüquqların dövlət qeydiyyatı üçün tələb olunan sənədlərin elektron nüsxələrinin notarius tərəfindən informasiya sistemləri vasitəsilə ötürülməsi;
- hüquqların dövlət qeydiyyatı üçün tələb olunan ödənişlərin notarius tərəfindən aidiyyəti üzrə köçürülməsi.

Qanun 24 yanvar 2023-cü ildə qüvvəyə minmişdir.

### 2. Notariat hərəkətlərinin aparılması üçün zəruri məlumatlar Elektron Hökumət İnformasiya Sistemindən əldə ediləcək

**Sənəd:** "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 29 noyabr 2022-ci il

**Şərh:** Qanuna əsasən Daşınmaz əmlak barəsində notariat hərəkətlərinin aparılması ilə bağlı daşınmaz əmlaka dair dövlət reyestrindən çıxarış, həmin əmlakın təsviri, bu əmlak

üzərində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindəki məlumatlar notarius və ya qanunla müəyyən edilmiş hallarda notariat hərəkəti etməyə hüququ olan digər vəzifəli şəxslər tərəfindən dövlət reyestrindən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində əldə edilir. Həmin sənəd və məlumatlar notarius və ya notariat hərəkəti etməyə hüququ olan digər vəzifəli şəxslərin istifadə etdiyi müvafiq informasiya sistemində elektron formada avtomatlaşdırılmış qaydada əks olunur.

Qanun 24 yanvar 2023-cü ildə qüvvəyə minmişdir.

### 3. Daşınmaz əmlakla bağlı beh razılaşmaları notariat qaydasında təsdiq olunmalı olacaq

**Sənəd:** Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 29 noyabr 2022-ci il

**Şərh:** Qanuna əsasən beh haqqında razılaşma daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilənin bağlanması ilə bağlı olduqda, notariat qaydasında təsdiq edilməlidir.

Qanun 15 yanvar 2022-ci ildə qüvvəyə minmişdir.

## Miqrasiya

### 4. Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun, inzibati müəssisələrinin və hüquqi şəxslərinin Ələt azad iqtisadi zonasının ərazisində işə cəlb etdiyi əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsi tələb olunmayacaq

**Sənəd:** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 23 dekabr 2022-ci il

**Şərh:** Qanuna əsasən, Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun, inzibati müəssisələrinin və hüquqi şəxslərinin Ələt azad iqtisadi zonasının ərazisində işə cəlb etdiyi şəxslərə, habelə bu hüquqi şəxslərin təsisçilərinə Azərbaycan Respublikasında əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi tələb olunmayacaq.

Həmçinin yuxarıda qeyd olunan şəxslər və onların ailə üzvlərinə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun və ya inzibati müəssisəsinin vəsatəti əsasında veriləcək. Belə halda bu şəxslərin qeydiyyata alınacağı yaşayış sahəsinə dair sənədlərin təqdim edilməsi tələb olunmayacaq. Həmin şəxslərin yaşayış yeri üzrə qeydiyyatı Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun və ya inzibati müəssisəsinin təqdim etdiyi ünvan üzrə aparılacaq.

Qanun 13 yanvar 2023-ci ildə qüvvəyə minmişdir.

### 5. Texnologiyalar parkının rezidenti tərəfindən işə cəlb olunan bir qrup əcnəbi və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsi tələb olunmayacaq

**Sənəd**: "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 27 dekabr 2022-ci il

**Şərh:** Qanuna əsasən, texnologiyalar parkının rezidentindən (hüquqi şəxsə münasibətdə onun rəhbəri və müavinləri vəzifəsini tutanlar) və həmin rezident tərəfindən Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyətinə cəlb edilən informasiya və kommunikasiya texnologiyaları sahəsində təcrübəsi olan mütəxəssislərdən Azərbaycan Respublikasında əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi tələb olunmayacaq.

Qanun 1 yanvar 2023-cü ildə qüvvəyə minmişdir.

## Sahibkarlıq

### 6. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən bəzi kreditlər dövlət zəmanəti ilə təmin olunacaq və kredit faizləri subsidiyalaşdırılacaq

Sənəd: İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalanma tarixi:** 9 yanvar 2023-cü il

**Şərh**: Fərmana əsasən "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası" ("Qayda") təsdiq edilmişdir.

Qaydaya əsasən işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin müvəkkil kredit təşkilatlarından manatla almaq istədikləri dövlət zəmanəti ilə təmin edilən kreditlər aşağıdakı tələblərə cavab verməlidir:
- bir sahibkarlıq subyektinin bütün müvəkkil kredit təşkilatları üzrə dövlət zəmanəti verilən cəmi kreditlərinin məbləği 5 000 000 (beş milyon) manatdan çox olmamalı;
- kreditin illik faiz dərəcəsi 15 (on beş) faizdən çox olmamalı;
- kreditin müddəti 7 (yeddi) ildən çox olmamalı;
- kredit üzrə güzəşt müddəti kreditin müddətinin yarısından çox olmayaraq, 36 (otuz altı) ayadək olmalı;
- bir kredit üzrə verilən dövlət zəmanətinin kreditə nisbəti 90 (doxsan) faizdən çox olmamalıdır.

Zəmanət aşağıdakı hallarda verilmir:
- sahibkarlıq subyektinin müvəkkil kredit təşkilatından almaq istədiyi kreditin cəlb ediləcəyi layihə (bundan sonra - layihə) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilmədikdə;

- kredit hesabatına əsasən sahibkarlıq subyektinin kredit almaq üçün müraciət etdiyi tarixə 60 (altmış) gündən artıq (zamin durduğu öhdəliklər istisna olmaqla) davam edən gecikməsi olduqda;
- sahibkarlıq subyektinin hesabları üzərində məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya kredit təşkilatı ilə sahibkarlıq subyekti arasında bağlanmış müqavilədə nəzərdə tutulmuş hallarda pul vəsaitinin silinməsinə dair müvafiq sərəncam olduqda;
- sahibkarlıq subyekti zəmanət üçün müraciət edən müvəkkil kredit təşkilatına aidiyyəti olan şəxs olduqda;
- sahibkarlıq subyektinin nizamnamə kapitalında dövlətin iştirak payı 50 (əlli) faizdən çox olduqda və s.

Faiz subsidiyaları zəmanət verilən kreditlərə hesablanaraq ödənilir. Faiz subsidiyası kreditin illik faiz dərəcəsinin 10 (on) faiz bəndi həcmində və 36 (otuz altı) aydan çox olmayan müddətə verilir. Kreditin illik faiz dərəcəsi 10 (on) faizdən aşağı olarsa, faiz subsidiyası kreditin illik faiz dərəcəsi həcmində verilir.

Fərman 9 yanvar 2023-cü ildə qüvvəyə minmişdir.

## Valyuta tənzimi

### 7. Valyuta əməliyyatları barədə vahid informasiya sistemi yaradılır

**Sənəd:** "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 23 dekabr 2022-ci il

**Şərh:** Qanun Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən valyuta nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədilə rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatları barədə məlumatların toplanıldığı vahid informasiya sisteminin yaradılmasını nəzərdə tutur.

Qanunda, həmçinin, vahid informasiya sistemi barədə aşağıdakılar müəyyən olunmuşdur:
- Valyuta nəzarəti agentləri apardıqları valyuta əməliyyatları barədə məlumatları bu informasiya sisteminə daxil edəcək və valyuta nəzarəti məqsədləri üçün həmin sistemdən istifadə edəcəklər.
- Valyuta əməliyyatları barədə vahid informasiya sisteminə məlumatların təqdim edilməsi və sistemdən alınması qaydası, təqdim edilən məlumatların növü və sistemin fəaliyyətinə dair digər məsələlər Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən ediləcək.
- Valyuta əməliyyatları barədə vahid informasiya sistemində toplanılan məlumatlar pul vəsaitləri ilə əməliyyatlara dair sənədlərin saxlanılması müddətində saxlanılacaq və bu sistemdə toplanılan və oradan alınan məlumatlara bank sirrinin qorunması qaydaları şamil olunacaq.
- Valyuta əməliyyatları barədə vahid informasiya sistemində məlumatların toplanılması və işlənilməsi üçün məlumat subyekti olan rezident və qeyri-rezidentlərin razılığı tələb olunmayacaq, onlar məlumatların bu sistemdə toplanılması və işlənilməsinə etiraz edə və oradakı məlumatların məhv edilməsini tələb edə bilməyəcəklər.

Qanun 31 dekabr 2022-ci ildə qüvvəyə minmişdir.

## Sosial müdafiə

### 8. Texnologiyalar parkının rezidentləri və əlaqəli şəxslər tərəfindən məcburi dövlət sosial sığorta haqqının ödənilməsini tənzimləyən yeni qaydalar müəyyən olunmuşdur

**Sənəd:** "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

**İmzalanma tarixi:** 27 dekabr 2022-ci il

**Şərh:** Qanuna əsasən, texnologiyalar parkının rezidenti (o cümlədən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər), onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı, habelə bu şəxslər tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən fiziki şəxslər (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) üzrə, 2023-cü il yanvarın 1-dən 10 il müddətində məcburi dövlət sosial sığorta haqqı öz seçimlərindən asılı olaraq minimum aylıq əməkhaqqı məbləğinin 4 misli miqdarından və ya muzdlu işdən əldə edilən gəlirlərdən "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilir.

Yuxarıda qeyd olunan sığortaolunan hər il yanvar ayının 15-dək öz seçimi barədə yazılı məlumatı sığortaedənə təqdim edir və təqvim ilinin sonunadək həmin seçim dəyişdirilmir. Növbəti təqvim ili üçün sığortaolunan qeyd olunan müddətdə seçimi barədə yazılı məlumatı təqdim etmədikdə, sığortaedən əvvəlki ildə həmin sığortaolunanın seçimini tətbiq edir. Təqvim ili ərzində qeyd edilən kateqoriyadan olan yeni işəgötürülən şəxsə münasibətdə isə müqavilə bağlamaq üçün ərizədə qeyd etdiyi seçimi tətbiq edilir.

Qanun 31 dekabr 2022-ci ildə qüvvəyə minmişdir.

### 9. Sosial müavinətlərin miqdarı artırıldı

**Sənəd:** Sosial müavinətlərin məbləğinin artırılması və "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalanma tarixi:** 13 yanvar 2023-cü il
**Şərh:** Fərmana əsasən 2023-cü il yanvarın 1-dən sosial müavinətlərin məbləğləri aşağıdakı kimi müəyyən edilir:

- yaşa görə sosial müavinətin məbləği 220 (iki yüz iyirmi) manat;
- orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə sosial müavinətin məbləği 270 (iki yüz yetmiş) manat, orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə sosial müavinətin məbləği 220 (iki yüz iyirmi) manat, orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə sosial müavinətin məbləği 150 (yüz əlli) manat;
- ailə başçısını itirməyə görə sosial müavinətin məbləği 120 (yüz iyirmi) manat;
- bir yaşınadək uşağı olan aztəminatlı ailələrə sosial müavinətin məbləği hər uşaq üçün 100 (bir yüz) manat;
- radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün sosial müavinətin məbləği 300 (üç yüz) manat;
- uşağın anadan olmasına görə sosial müavinətin məbləği 500 (beş yüz) manat;

- dəfn üçün sosial müavinətin məbləği 500 (beş yüz) manat.

Fərman 14 yanvar 2023-cü ildə qüvvəyə minmişdir.

### 10. Minimum əmək haqqının miqdarı artırıldı

**Sənəd:** Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ("Sərəncam")

**İmzalanma tarixi:** 5 yanvar 2023-cü il

**Şərh:** Sərəncama əsasən minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən 345 manat müəyyən edilmişdir.

Sərəncam 6 yanvar 2023-cü ildə qüvvəyə minmişdir.

## Mülki prosessual hüquq

### 11. Qarşılıqlı iddia verilən zaman mediasiya qaydalarına riayət olunması tələb olunmayacaq

**Sənəd: "**Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 155-ci maddəsinin həmin Məcəllənin 4.3–4.6, 55.2, 152.1.6 və 152.1.6-1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ("Qərar")

**İmzalanma tarixi:** 14 dekabr 2022-ci il

**Şərh**: Qərara əsasən Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinə uyğun olaraq ilk iddia ilə birlikdə baxılmaq üçün qarşılıqlı iddia verən cavabdehdən kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə qədər nizamlama qaydalarına (pretenziya və mediasiya) riayət edilməsi tələb olunmur.

## İnzibati xətalar

### 12. İnzibati tənbehin verilməsi müddəti uzadıldı

**Sənəd:** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 2 dekabr 2022-ci il

**Şərh:** Qanuna əsasən xüsusi kateqoriyadan olan inzibati xətalar istisna olmaqla, inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci dörd ay keçənədək verilə bilər. Qeyd edilməlidir ki, əvvəlcə bu müddət üç ay təşkil edirdi.

Qanun 13 yanvar 2023-cü ildə qüvvəyə minmişidir.

# Bizimlə əlaqə




**Alexey Abramov**

Partnyor,
Hüquq xidmətləri üzrə rəhbər
KPMG Law Caspian

T +7 (916) 820 5962
E alexeyabramov@kpmg.com





**Rizvan Qubiyev**

Vergi və hüquq
departamentinin rəhbəri,
KPMG Azərbaycan

T +994 12 404 8910
E rgubiyev@kpmg.az





**Seymur Niftaliyev**

Hüquq Praktikasının Lideri,
KPMG Azərbaycan

T +994 12 404 8910
E sniftaliyev@kpmg.az



www.kpmg.az

Privacy | Legal

You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to office@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan

© 2023 KPMG Azerbaijan Limited, a company incorporated under the Companies (Guernsey) Law, 2008, acting through its Representative Office in the Republic of Azerbaijan, a member firm of the KPMG global organization of independent member firms affiliated with KPMG International Limited, a private English company limited by guarantee. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International.